№ 03-04 (811) 28 fevral 2025-ci il · Qəzet 1991-ci ildən nəşr olunur · www.health.gov.az; · www.tibbqazeti.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



Azərbaycan Respublikasının Prezidenti İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsi haqqında Fərman verib 2



Cinayət və İnzibati Xətalar məcəllələrinə sağlamlıqla bağlı dəyişikliklər edildi 2



Koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin maaşına əlavənin müddəti uzadılıb 4

# Səhiyyə Nazirliyi dövlət tibb müəssisələrinə işə qəbul prosesini rəqəmsallaşdırıb



Səhiyyə Nazirliyi səhiyyə sistemində müasir dövrün tələbi və innovativ düşüncə məhsulu olan Rəqəmsal Səhiyyə ekosisteminin tətbiqi ilə bağlı tədbirləri davam etdirir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə təsdiq edilmiş «Dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinə tibb işçilərinin işə qəbulu Qaydası»nın icrasını təmin etmək məqsədilə Səhiyyə Nazirliyinin «Vahid Səhiyyə İnformasiya Sistemi»nin (VSİS) «İşə qəbul» altsistemi hazırlanaraq istifadəyə verilib. 7



## Azərbaycanda həkimlərin reklamına qadağa qoyulması təklif edilib

Milli Məclisin yaz sessiyasının ilk plenar iclasında yaz sessiyasının qanunvericilik işləri planı müzakirə olunarkən Azərbaycanda həkimlərin reklamına qadağa qoyulması təklif edilib.

Səh. 3

## Səhiyyə naziri İsveçrənin aparıcı əczaçılıq şirkətinin rəhbərliyi ilə görüşüb



Azərbaycan Səhiyyə Nazirliyində İsveçrənin aparıcı əczaçılıq şirkəti olan «Novartis Pharma Services AG"nin Mərkəzi Avropa Regionunun inkişaf etməkdə olan ölkələr üzrə prezidenti vəzifəsini müvəqqəti icra edən Almaz Miftaxovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Səh. 4




## Analitik Ekspertiza Mərkəzi əhaliyə və apteklərə müraciət edib

Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi (AEM) təlimatı olmadan satılan dərman vasitələrinə görə apteklərin cərimə ediləcəyi ilə bağlı mediada yayılan məlumatlarla əlaqədar əhaliyə və aptek təşkilatlarına müraciət edib. 11

## Aforizm

*İnsan özünə nəzarət edə bilmirsə, azad deyil.*

*Pifaqor*

# Azərbaycan Respublikasının Prezidenti İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsi haqqında Fərman verib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanını imzalayıb.**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndi rəhbər tutularaq, «Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun 15-21.1-1-ci maddəsinə uyğun olaraq qərara alınıb ki, İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin xərcləri 2 941 690 000,00 manat məbləğində təsdiq edilsin. Bu Fərmanla həmin xərclərin maliyyələşmə mənbələri aşağıdakı kimi müəyyənləşib:

- icbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin gəlirləri (2571690000,00 manat);
- icbari tibbi sığorta fondunun büdcəsinin əvvəlki illərdə istifadə olunmamış vəsaitlərindən (qalığından) 2025-ci ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən vəsait (370000000,00 manat).

Müəyyən edilib ki, 2025-ci ildə icbari tibbi sığorta fondunun gəlirləri dövlət büdcəsindən ayırmalar (1 416405000,00), işəgötürən və işçi tərəfindən icbari tibbi sığorta üzrə ödənilən sığorta haqları (909060000,00), fiziki şəxslərdən sığorta haqları üzrə daxilolmalar (17000000,00), avtomobil benzininin, dizel yanacağının, maye qazın Azərbaycan Respublikasının ərazisinə idxalı və daxili istehlakı, alkoqollu içkilərə və tütün məhsullarına tətbiq olunan aksizlər üzrə daxilolmalar (140625000,00) və digər daxilolmalar (88 600 000,00) hesabına formalaşır.

Fərmanla həmçinin icbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin xərclərinin istiqamətləri də müəyyən edilib. Belə ki, «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» publik hüquqi şəxsin Aparatının (filial, idarə) saxlanılma xərcləri 33,5 milyon manat, «Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi» publik hüquqi şəxsin xərcləri 84691708 manat, «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi» publik hüquqi şəxsin saxlanılma xərcləri 47,3 milyon manat, icbari tibbi sığorta ödənişləri və dotasiya məbləği 2655721292 manat, sair xərclər 20 milyon manat, sığorta ehtiyatları 96877000 manat, yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə tədbirlərinin bir hissəsinin maliyyələşdirilməsi xərcləri 3,5 milyon manat, bank xərcləri 100000 manat nəzərdə tutulub.

Müəyyən edilib ki, İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin «Əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması» yarımbəndində nəzərdə tutulmuş vəsaitin ödənilməsini «Tibbi sığorta haqqında» Qanunun 15-11.2-ci maddəsinə əsasən Maliyyə Nazirliyi həyata keçirir.

İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin «Səhiyyə sahəsində dövlət proqramlarına və tədbirlərə ayrılan vəsait» yarımbəndində nəzərdə tutulmuş vəsaitin ödənilməsini İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) ilə razılaşdırılmış aylıq və rüblük bölgü əsasında Maliyyə Nazirliyi həyata keçirir.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrinin xərclər smetasında nəzərdə tutulmuş məbləğlə İTSDA-nın həmin qurumlara ödədiyi sığorta ödənişlərinin məbləği arasında kəsir yarandığı halda, həmin kəsir aylıq əsaslarla icbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin 3.4.1-ci yarımbəndində nəzərdə tutulan vəsait hesabına maliyyələşdirilir. İTSDA tərəfindən tibb müəssisələrinin smetaları əsasında ödənilən vəsaitin xərclənməmiş hissəsi büdcə ilinin sonunadək Agentliyə qaytarılır.

Naxçıvan Muxtar Respublikası üzrə nəzərdə tutulan vəsaitin bölgüsü Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin «Səhiyyə sahəsində dövlət proqramlarına və tədbirlərə ayrılan vəsait» bəndində nəzərdə tutulan vəsaitin bölgüsünü Nazirlər Kabineti həyata keçirir.

Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.




# Cinayət və İnzibati Xətalar məcəllələrinə sağlamlıqla bağlı dəyişikliklər edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında» Qanunu imzalayıb.**




Dəyişikliklər arasında səhiyyəyə və insan sağlamlığına aid olanlar da var.

Belə ki, Cinayət Məcəlləsində edilən dəyişikliklərdən biri «Təhlükəli qida məhsullarının istehsalı, satışı və ya satış məqsədilə saxlanması» adlanan 200-3-cü maddənin əlavə olunmasıdır. Bu maddəyə əsasən, bilə-bilə insan həyatı və sağlamlığı üçün təhlükəli qida məhsullarının istehsalı, satışı və ya satış məqsədilə saxlanması, bu əməllər xeyli miqdarda törədildikdə 2 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 10 min manatdan 15 min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər təkrar törədildikdə, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə, yaxud külli miqdarda törədildikdə 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 1 ildən 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 1 ildən 3 ilədək müddətə azadlıqdan məhrum etmə nəzərdə tutulur. Bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda şəxs 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 2 ildən 4 ilədək müddətə azadlıqdan məhrum edilir. Həmin əməllər ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə 4 ildən 7 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər ehtiyatsızlıqdan 2 və daha çox şəxsin ölümünə səbəb olduqda 3 ilədək müddətə müəyyən vəzifə tutmaq və ya müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum edilməklə 5 ildən 10 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində edilən dəyişikliklərdən biri «Qida təhlükəsizliyi haqqında qanunvericiliyin pozulması» adlanan 220-ci maddənin yeni redaksiyada verilməsidir.

*(Davamı 3-cü səhifədə)*

# Cinayət və İnzibati Xətalar məcəllələrinə sağlamlıqla bağlı dəyişikliklər edildi

*(Əvvəli 2-ci səhifədə)*

Bu maddənin 220.5-ci bəndinə görə, qida məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi və utilizasiyası proseslərinə ilkin və dövri tibbi müayinələrdən keçməmiş, yaxud müxtəlif yoluxucu xəstəliklərin daşıyıcıları olan və ya infeksion xəstəliklərə yoluxmuş əməkdaşların buraxılmasına görə fiziki şəxslər 200 manatdan 300 manatadək məbləğdə, vəzifəli şəxslər 800 manatdan 1000 manatadək məbləğdə, hüquqi şəxslər 1500 manatdan 2000 manatadək məbləğdə cərimə edilir.

Məcəllənin 221-ci maddəsinə 221.1-1-ci və 221.3-1-ci maddələr əlavə olunub. Bu maddələrə əsasən, tibb müəssisələri üçün qablaşdırılmış dərman vasitələrinin pərakəndə satışına görə inzibati xətanın bilavasitə obyekti olan dərman vasitələri müsadirə edilməklə vəzifəli şəxslər 1500 manatdan 2000 manatadək, hüquqi şəxslər 5000 manatdan 7000 min manatadək məbləğdə cərimə edilir. Həmin xəta nəticəsində ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına yüngül zərərin vurulmasına görə inzibati xətanın bilavasitə obyekti olan dərman vasitələri müsadirə edilməklə vəzifəli şəxslərin 2000 manatdan 2500 manatadək, hüquqi şəxslərin 7000 manatdan 9000 manatadək məbləğdə cərimə edilməsi nəzərdə tutulur.

221.3-cü maddədə «fərqli» sözü «yuxarı» sözü ilə əvəz edilib. Beləliklə, dövlət qeydiyyatından keçmiş dərman vasitələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada tənzimlənən qiymətlərindən fərqli deyil, yuxarı qiymətlərlə satışına görə cərimə tətbiq olunur.

221.4-cü maddə 221.1, 221.1-1 və 221.3-1-ci maddələrdə nəzərdə tutulmuş xətaların inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə cəriməni nəzərdə tutur. Bu Qanunla həmin cərimələrin miqdarı artırılır.

221.8-ci maddədə «dərman vasitəsi deyildir» sözlərinin böyük hərflərlə yazılması, «fəallığa malik qida əlavələrinin" sözləri «aktiv qida məhsullarının» sözləri ilə əvəz edilməsi nəzərdə tutulur.

221.9-cu maddədə «bioloji fəallığa malik qida əlavələrinin həkim reseptinə yazılması» sözləri «bioloji aktiv qida məhsullarının reseptə yazılması» sözləri ilə əvəz edilib, buna görə cərimə də 50-100 manatdan 100-150 manata, 150-200 manatdan 300-400 manatadək artırılıb.

Həmçinin Məcəlləyə aşağıdakı məzmunda 221.12 - 221.14-cü maddələr əlavə edilib:




«221.12. «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hal istisna olmaqla, dərman vasitələrinin dövlət reyestrinə daxil edilməyən dərman vasitəsinin reseptə yazılmasına görə - vəzifəli şəxslər yüz manatdan yüz əlli manatadək məbləğdə, hüquqi şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir.

221.13. Dərman vasitəsinin Azərbaycan dilində olan istifadə təlimatı qablaşdırmanın içərisində və ya qablaşdırmanın yanında dərman vasitəsini müşayiət etmədiyi təqdirdə, həmin dərman vasitəsinin dövlət qeydiyyatı haqqında vəsiqənin sahibi tərəfindən aptek təşkilatının Azərbaycan dilində olan istifadə təlimatı ilə təmin edilməməsinə görə - vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

221.14. Dərman vasitəsinin Azərbaycan dilində olan istifadə təlimatı qablaşdırmanın içərisində və ya qablaşdırmanın yanında dərman vasitəsini müşayiət etmədiyi təqdirdə, istehlakçının tələbi əsasında aptek təşkilatı tərəfindən kağız formasında çap edilərək ona təqdim edilməməsinə görə - əlli manat məbləğində cərimə edilir».

428.4-cü maddənin dispozisiyasında «Həkim resepti» sözləri «Resept» sözü ilə, «fəallığa malik qida əlavələrinin dərman vasitəsi olmadığı, həkim resepti» sözləri «aktiv qida məhsullarının dərman vasitəsi olmadığı və müalicəvi xüsusiyyətlərə malik olmadığı haqqında məlumat verilmədən, «Qida təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınmasını təsdiq edən qeydiyyat nömrəsi göstərilmədən, resept» sözləri ilə əvəz edilib. Beləliklə, həmin maddəyə əsasən, resept əsasında buraxılan dərman vasitələrinin, istehsalına və ya satışına icazə verilməyən tibb vasitələrinin, yaxud tətbiqinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən icazə verilməyən müalicə, profilaktika, diaqnostika və reabilitasiya metodlarının, habelə bioloji aktiv qida məhsullarının dərman vasitəsi olmadığı və müalicəvi xüsusiyyətlərə malik olmadığı haqqında məlumat verilmədən, «Qida təhlükəsizliyi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qeydiyyata alınmasını təsdiq edən qeydiyyat nömrəsi göstərilmədən, resept olmadan buraxılan dərman vasitələrinin qəbulunun və tibbi texnikadan istifadənin əlavə təsirlə müşayiət olunması, həkimlə yaxud mütəxəssislə məsləhətləşmənin zəruriliyi barədə məlumat verilmədən reklam edilməsinə görə vəzifəli şəxslər 300 manatdan 500 manatadək məbləğdə, hüquqi şəxslər 1000 manatdan 2000 manatadək məbləğdə cərimə edilir.

452-ci maddədə «ləvazimatları,» sözündən sonra «pərakəndə satış üçün nəzərdə tutulan əczaçılıq məhsulları (pambıq, tənzif, bint, sarğı materialları, leykoplastrlar və digər analoji məmulatlar),» sözləri əlavə edilib, «uşaq yeməkləri, müalicəvi mineral sular, bioloji fəallığa malik qida əlavələri» sözləri «xüsusi təyinatlı qida məhsulları, təbii mineral sular, bioloji aktiv qida məhsulları» sözləri ilə əvəz olunub.

Məcəlləyə aşağıdakı məzmunda 452.2-1-ci maddə əlavə edilib:

«452.2-1. Reseptə yazılmış təsiredici maddə üzrə aptek təşkilatında mövcud olan dərman vasitələri və onların qiymətləri barədə aptek təşkilatının satıcısı tərəfindən istehlakçıya məlumat verilməməsinə görə - iki yüz manat məbləğində cərimə edilir».

Qanunun 3-cü maddəsində bildirilir ki, Cinayət Məcəlləsinin yeni əlavə olunmuş 200-3-cü maddəsi, eləcə də İnzibati Xətalar Məcəlləsinin yeni redaksiyada verilən 220-ci maddəsi 2025-ci il martın 1-dən qüvvəyə minir.

# Azərbaycanda həkimlərin reklamına qadağa qoyulması təklif edilib

**Milli Məclisin yaz sessiyasının ilk plenar iclasında yaz sessiyasının qanunvericilik işləri planı müzakirə olunarkən Azərbaycanda həkimlərin reklamına qadağa qoyulması təklif edilib.**



Bu təkliflə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev çıxış edib. Komitə sədri bununla bağlı parlamentin yaz sessiyasının qanunvericilik işləri planına "Reklam haqqında" Qanuna dəyişikliklə bağlı məsələnin daxil edilməsini təklif edib. Bildirib ki, dəyişikliklərdə tibbi xidmətdə konkret nəyin reklam edilməsinə icazə verilib-verilməməsi müəyyənləşdirilməlidir: «Məsələn, dünyanın əksər ölkələrində həkimin şəxs olaraq reklamı qadağandır. Bu, həkim etikasının pozulmasıdır. Hesab edirəm ki, bu bizdə də qadağan olunmalıdır».

M.Quliyev bildirib ki, bir sıra televiziya kanallarındakı şou proqramlarda tibbi xidmətlər, ayrı-ayrı həkimlər və klinikalar reklam olunur: «Hətta verilişlərin sponsorluğunu da həkimlər edirlər. Əlbəttə, tibb sahəsində xidmətlərin reklamına qarşı deyilik, ancaq müəyyən çərçivələri, normaları var». Komitə sədri hesab edir ki, son dövrlərdə plastik cərrahiyyə, bədən şəkilləndirmə, mədəkiçiltmə əməliyyatlarında ölüm, ağırlaşma hallarının baş verməsində reklamların, şou proqramların mənfi təsiri var.

Deputat Aqil Abbasov da televiziya kanallarında həkimlərin və dərmanların reklam olunmasının əleyhinə çıxıb. Bildirib ki, yaxşı həkimin reklama ehtiyacı yoxdur. Deputat yaz sessiyasında «Reklam haqqında» Qanuna bu nöqteyi-nəzərdən yenidən baxılmasını təklif edib.

Parlamentin «Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsində Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov deyib ki, sahibkarlıq sahəsində yoxlamaların olmaması saxta tibbi xidmətlərin, standartlara cavab verməyən müəssisələrin artmasına səbəb olur.

Deputat bildirib ki, özəl tibb müəssisələri ölkələrdə tibbi xidmətin keyfiyyətin artırılmasında lokomotiv rolunu oynayır: «Ancaq sahibkarlıq subyektlərində yoxlamaların olmamasından sui-istifadə edənlər də çoxdur. Bu halların aradan qaldırılması üçün müzakirələrin aparılmasına, bəlli qayda və qanunların düzənlənməsinə ehtiyac var».

# Milli Məclis «Tibbi sığorta haqqında» Qanunda dəyişiklikləri müzakirə edib

**Fevral ayında Milli Məclisin 2025-ci ilin yaz sessiyasının bir neçə plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclaslarda səhiyyə ilə bağlı məsələlərə də baxılıb.**



Parlamentin yaz sessiyasının ilk iclasında spiker Sahibə Qafarova yaz sessiyasının qanunvericilik işləri planını diqqətə çatdırıb.

«Tibbi sığorta haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verib. Komitə sədri bildirib ki, layihə icbari tibbi sığortanın tətbiqindən məmnunluq səviyyəsini təmin etmək, habelə ilkin tibbi sanitariya yardımının təkmilləşdirilməsi üçün zəruri tədbirlər görmək, əhalinin həssas təbəqəsinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə təklif olunub. Bu baxımdan «Tibbi sığorta haqqında» Qanunun 16-4.4-1-ci və 16-4.5-ci maddələrinə müvafiq dəyişiklik edilərək bu qanunun müştərək maliyyələşmə məbləğinə aid hissələrinin tətbiqinin 2026-cı il 1 yanvar tarixindən həyata keçirilməsi nəzərdə tutulur. Həmçinin 15-28.4-cü maddənin ləğv edilməsi ilə tibbi xidmətlərin icbari tibbi sığorta vəsaiti hesabına təmin edilməsi zamanı, sığortaolunanların ixtisaslı həkim yardımı üçün inzibati ərazi vahidindən asılı olmayaraq müştərək maliyyələşmə məbləği tətbiq edilmədən müraciəti sadələşdirilir.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Parlamentin növbəti plenar iclasında həmin qanun layihəsinə ikinci oxunuşda baxılıb. Qanun layihəsi haqqında Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verib. O, bildirib ki, sənədin əsas məqsədi icbari tibbi sığorta xidmətlərinin optimallaşdırılması, əhalinin məmnunluğunun və əlçatanlığının artırılması, ilkin tibbi xidmətin səviyyəsinin yüksəldilməsidir.

Birinci oxunuşdan sonra layihə ilə bağlı heç bir irad və təklifin daxil olmadığını deyən komitə sədri sənədin dəstəklənməsini xahiş edib.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

# Koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin maaşına əlavənin müddəti uzadılıb



**Azərbaycanın Baş naziri Əli Əsədov koronavirus xəstələrinə yardım göstərən tibb işçilərinin əməkhaqqına əlavənin ödənilməsi müddətinin uzadılması ilə bağlı iki Qərar imzalayıb.**

AZƏRTAC xəbər verir ki, birinci sənəd «Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Nazirlər Kabinetinin Qərarıdır. Bu dəyişikliyə görə, COVID-19-la mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına verilən əlavənin müddəti 2025-ci il aprelin 1-dək uzadılıb.

Qəbul edilmiş ikinci sənədə əsasən, «Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilib.

Yeni Qərara əsasən, COVID-19 infeksiyasına yoluxmuş xəstələrə Bakı Şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına əlavələr də 2025-ci il aprelin 1-dək ödəniləcək.

# Səhiyyə naziri İsveçrənin aparıcı əczaçılıq şirkətinin rəhbərliyi ilə görüşüb



**Azərbaycan Səhiyyə Nazirliyində İsveçrənin aparıcı əczaçılıq şirkəti olan "Novartis Pharma Services AG"nin Mərkəzi Avropa Regionunun inkişaf etməkdə olan ölkələr üzrə prezidenti vəzifəsini müvəqqəti icra edən Almaz Miftaxovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev ölkələrimiz arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq üçün imkanların olduğunu qeyd edib. Əczaçılıq sənayesinin müasir səhiyyənin ən mühüm istiqamətlərindən biri olduğunu vurğulayan Teymur Musayev bu sahədə də əlaqələrin inkişafı üçün potensialın mövcudluğunu diqqətə çatdırıb. Nazir gələcəkdə əməkdaşlığın inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Öz növbəsində Almaz Miftaxov şirkətin Azərbaycanın Səhiyyə Nazirliyi ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu vurğulayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

# Səhiyyə naziri jurnalistlərin suallarını cavablandırdı

Səhiyyə naziri Teymur Musayev ona müraciət edən bir neçə jurnalistin suallarına cavab verib.

Plastik cərrahların iş icazəsi ilə bağlı suala cavab olaraq nazir deyib ki, Səhiyyə Nazirliyinin, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Təhsil Nazirliyinin müvafiq qurumlarının nümayəndələrindən ibarət yaradılmış xüsusi Təftiş Komissiyasının indiyədək 5 iclası keçirilib. Plastik cərrahiyyə ilə məşğul olan 40 nəfər mütəxəssisin sənədləri həmin iclaslarda təftiş olunub: «Həmin mütəxəssislər özləri də o iclaslara dəvət olunublar. Araşdırmalar tam şəffaf şəkildə, onların iştirakı ilə aparılıb».

Nazir bildirib ki, ümumilikdə, 96 nəfər plastik cərrahiyyə ilə məşğul olan mütəxəssis öz sənədlərini təqdim edib. Araşdırmalar davam etdirilir. Təftiş Komissiyasının fəaliyyətinin sonunda Səhiyyə Nazirliyinin rəsmi saytında Azərbaycan Respublikasının ərazisində plastik cərrahiyyə ilə məşğul olmaq icazəsi olan mütəxəssislərin rəsmi siyahısı təqdim ediləcək.

Teymur Musayev bölgələrdə ixtisaslı həkim çatışmazlığı məsələsinə də münasibət bildirib. O deyib ki, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB bölgələrdə həkim çatışmazlığının aradan qaldırılması üçün birgə strategiya hazırlayıblar.

Səhiyyə naziri jurnalistin verdiyi icazəsiz stomatoloji xidmətlə bağlı suala cavab olaraq deyib ki, stomatoloji fəaliyyətlə bağlı Səhiyyə Nazirliyinə hər hansı rəsmi müraciət olunursa, məsələ dərhal araşdırılır, həmin müəssisələrə yoxlama göndərilir. «Bu kimi məsələlərlə bağlı mütəmadi şəkildə müraciətlər daxil olur və araşdırılır. Əgər stomatoloji fəaliyyət göstərmək üçün müvafiq sənədlər yoxdursa, həmin müəssisələr cərimələnir. Analitik Ekspertiza Mərkəzi bu istiqamətdə fəaliyyət göstərir. İqtisadiyyat Nazirliyi həmin mərkəzlə birlikdə məsələni diqqətdə saxlayır». Bununla belə, Teymur Musayev bu məsələdə vətəndaşların özlərinin də məsuliyyətini vurğulayıb, deyib ki, əgər hər hansı vətəndaş mətbəxdə diş çəkdirirsə, Səhiyyə Nazirliyi buna cavabdeh ola bilməz.

# Səhiyyə Nazirliyinin rəhbərliyi Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etdi



Müasir tariximizin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımının 33-cü ildönümü günündə Səhiyyə Nazirliyinin rəhbərliyi faciə qurbanlarının xatirəsini ehtiramla yad ediblər. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Nazirliyin rəhbər şəxsləri və tibb ictimaiyyətinin nümayəndələri Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılan «Ana harayı» abidəsini ziyarət edərək, abidə önünə gül dəstələri qoyublar.

Azərbaycan xalqı Xocalı soyqırımını heç vaxt unutmur və unutmayacaq.

Xatırladaq ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri Xocalı şəhərinə hücum edərək dinc əhaliyə vəhşicəsinə divan tutublar. Şəhərin 613 sakini, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca xüsusi amansızlıqla qətlə yetirilib, 1275 dinc sakin əsir götürülüb, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib.

# Azərbaycan xalqı Xocalı soyqırımını heç vaxt unutmur və unutmayacaq

**Səhiyyə Nazirliyində XX əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı anım tədbiri keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, əvvəlcə Xocalı soyqırımının qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Anım tədbirində çıxış edən səhiyyə naziri Teymur Musayev qeyd edib ki, Azərbaycan xalqı Xocalı soyqırımını heç vaxt unutmur və unutmayacaq. Nazirin sözlərinə görə, Xocalı soyqırımının əsl hüquqi qiymətini alması və dünyanın belə bir cinayətdən xəbərdar olması ilə bağlı milli səviyyədə addımlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra atılıb: «Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarı ilə fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilib və bu barədə beynəlxalq təşkilatlara məlumat verilib».

Teymur Musayev Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasının hər zaman Prezident İlham Əliyevin fəaliyyətinin mühüm istiqamətləri sırasında olduğunu vurğulayıb: «Bu dəhşətli soyqırımının dünyada tanıdılmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da müstəsna xidmətləri var. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalıya dəfələrlə səfərlər edərək, yenidənqurma işləri ilə tanış olub, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər. Belə ki, Azərbaycan Prezidenti bu ilin fevralın 19-da Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, kəndə köçən bir qrup sakinlə görüşüb. Həmçinin fevralın 25-də dövlət başçısı Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında Sərəncam imzalayıb».

«2020-ci ilin sentyabr-noyabr aylarında 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabr ayında birgünlük lokal xarakterli antiterror əməliyyatında Azərbaycan Ordusunun rəşadəti və qəhrəmanlığı sayəsində tarixi torpaqlarımız, o cümlədən Xocalı rayonu işğaldan azad olunub və 2023-cü il oktyabrın 15-də Xocalıda Azərbaycan bayrağı ucaldılıb. İşğaldan azad edilmiş bütün ərazilərdə hazırda sürətli bərpa-quruculuq işləri və Böyük Qayıdış prosesi davam etməkdədir», - deyə səhiyyə naziri fikrini tamamlayıb.

# Süni intellekt xəstəliklərin erkən və daha dəqiq diaqnostikasına kömək edir

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Bürosu 2025-2030-cu illəri əhatə edən ikinci beşillik Avropa İş Proqramı (EPW2, The European Programme of Work 2) üçün hazırlıqlara başlayıb. Bu prosesin bir hissəsi olaraq ÜST-nin Avropa Regional Bürosu 2030-cu ilə qədər Avropa Regionu üçün vahid səhiyyə gündəliyi üzrə fikir mübadiləsi aparmaq, prioritetləri və tövsiyələri müzakirə etmək məqsədilə üzv dövlətlər, vətəndaş cəmiyyəti və digər tərəfdaşlar üçün genişmiqyaslı virtual ictimai dinləmələr təşkil edir.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu qəbildən onlayn formatda «Gələcəyin səhiyyə sistemləri: səhiyyədə texnologiyaların və innovasiyaların istifadəsi - hər yerdə və hər kəsin maraqlarına uyğun» mövzusunda videokonfrans keçirilib.

Beynəlxalq konfransda ölkəmizi səhiyyə naziri Teymur Musayev təmsil edib.

Videokonfransda çıxış edən **ÜST-nin Avropa üzrə regional direktoru Hans Henri Klüge** qeyd edib ki, yeni texnologiyalar, o cümlədən rəqəmsal alətlər səhiyyə sektorunu transformasiya etdirir. Onun sözlərinə görə, süni intellekt, dəqiq tibb, şəxsi və demoqrafik məlumatlardan daha yaxşı istifadə xəstəliklərin qarşısının alınması, diaqnostikası və müalicəsinə kömək edir. Bu da nəticədə insanların sağlamlığının və rifahının yaxşılaşmasına gətirib çıxarır. Bununla belə, texnoloji tərəqqi qayğıkeş insan münasibətlərini əvəz edə bilməz.

Onlayn müzakirədə çıxış edən **Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev** qlobal səhiyyənin son onillikdə, xüsusən də son iki-üç il ərzində sürətli texnoloji tərəqqi yaşadığını qeyd edib: «Səhiyyə sistemlərinin gələcəyinin daha proqnozlaşdırıcı, fərdiləşdirilmiş və interaktiv olacağı ehtimalı çox yüksəkdir. Səhiyyə sənayesi tex-



noloji tərəqqi, məlumatlara əsaslanan qərarların qəbulu və fərdiləşdirilmiş tibbə doğru addımların birləşməsi ilə formalaşacaq. Hazırda da süni intellekt, məlumatlar bazası və rəqəmsal həllər səhiyyə xidmətlərinin təkmilləşdirilməsində həlledici rol oynayır».

Nazirin sözlərinə görə, süni intellekt səhiyyənin effektivliyini bir neçə yolla artıra bilər: «Planlaşdırma və sənədləşdirmə kimi təkrarlanan tapşırıqların avtomatlaşdırılması tibb işçilərinə öz diqqətlərini xəstələrin qayğısına fokuslamağa imkan verir. Eyni zamanda, rəqəmsal alətlər klinik qərarlar üçün dəstəyi təkmilləşdirir. Süni intellektə əsaslanan diaqnostika xəstəliklərin erkən və daha dəqiq aşkarlanmasına kömək edir, bununla da qərar qəbulunu sürətləndirir. Məlumat bazasının təhlili ictimai səhiyyə tendensiyalarının müəyyən olunmasına kömək edir, habelə hədəflənmiş səhiyyə strategiyalarının hazırlanmasına imkanlar yaradır. Bununla belə, biz süni intellekti səhiyyəyə inteqrasiya etdikcə, müvafiq qaydalar və etik prinsiplər vasitəsilə süni intellektə əsaslanan həllərin ədalətli və qərəzsiz istifadə olunmasını təmin etməliyik.

Səhiyyə sistemlərinin gələcəyinin digər əsas aspekti davamlılıqdır. Ətraf mühitə təsirləri minimuma endirmək, enerji istehlakını azaltmaq və davamlılığı təşviq etmək üçün biz yaşıl xəstəxanaların sayını artırmalı, enerjiyə qənaət edən səhiyyə müəssisələrinə və davamlı səhiyyə tullantılarının idarə edilməsinə sərmayə qoymalıyıq.

Rəqəmsal alətlər çox böyük faydalar təqdim etsə belə, onlar insanların qarşılıqlı əlaqəsini əvəz etməməlidir. Bu texnologiyalar tibb işçilərinə xəstələrə bilavasitə qulluq üçün daha çox vaxt ayırmağa imkan verən dəstəkləyici vasitələr rolunu oynamalıdır. Səhiyyə sistemləri süni intellekt və rəqəmsal həllərdən istifadə etməklə işçi qüvvəsi çatışmazlığını aradan qaldıra, tibbi xidmətin keyfiyyətini yaxşılaşdıra, beləliklə, daha davamlı və səmərəli gələcək yarada bilər», - deyə səhiyyə naziri fikrini tamamlayıb.

İclas zamanı ÜST-nin Avropa Regional Bürosuna üzv dövlətlərin, tərəfdaşların və vətəndaş cəmiyyətinin nümayəndələri səhiyyə sistemlərinin fəaliyyətini yaxşılaşdırmaq üçün sürətli texnoloji irəliləyişlərin potensialını, səhiyyə sistemlərinin texnoloji nailiyyətlərdən daha yaxşı istifadə etməsini təmin etmək üçün lazım olan əsas siyasət dəyişikliklərini, «rəqəmsal təcridlə» mübarizədə vətəndaşların və icmaların rolu kimi mövzuları müzakirə ediblər.

# Azərbaycan Endouroloji Cəmiyyətinin II Konqresində ən son elmi yeniliklər müzakirə olunub





**Bakıda Azərbaycan Endouroloji Cəmiyyətinin II Konqresi keçirilib.**

Bu sahədə aparıcı yerli və xarici mütəxəssislərin qatıldığı tədbir Azərbaycan Tibb Universitetinin (ATU) Urologiya kafedrasının 50 illik yubileyinə həsr olunub.

Konqresdə **Azərbaycan səhiyyə naziri Teymur Musayev** çıxış edərək ölkəmizdə urologiya sahəsində əldə olunan nailiyyətlərdən və bu sahənin perspektivlərindən bəhs edib.

Səhiyyə naziri bildirib ki, son illər Azərbaycan Respublikası Ümummilli Lider Heydər Əliyevin siyasi kursu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik siyasəti, bacarıqlı rəhbərliyi və gərgin zəhməti sayəsində hərtərəfli inkişaf edir. Ölkəmizin iqtisadi qüdrətinin artması maliyyə resurslarını sosial tərəqqiyə, əhalinin rifahının yaxşılaşdırılmasına yönəltməyə imkan verir. Bu tərəqqini ən bariz şəkildə ölkə səhiyyəsinin inkişafında, dövlət rəhbərliyinin əhalinin sağlamlığına diqqət və qayğısında görmək mümkündür.

Nazir vurğulayıb ki, son 20 ildə səhiyyəyə ayrılan büdcə vəsaiti 30 dəfə artırılıb, 700-dən çox səhiyyə müəssisəsində təmir-tikinti işləri aparılıb. Həmin müəssisələrin 70 faizdən çoxu regionların payına düşür.

«Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva vətəndaşların sağlamlığına həssaslıqla yanaşır, müxtəlif sosial təşəbbüslərlə çıxış etməklə yanaşı, həm də onlara dəstək verir.

Səhiyyənin yeni maliyyələşmə mexanizmi olan icbari tibbi sığorta 2021-ci il aprelin 1-dən bütün ölkə ərazisində tətbiq olunur. Xidmətlər zərfi çərçivəsində 3315 sayda tibbi xidmət göstərilir. Bu xidmətlər siyahısında müasir uroloji əməliyyatlar da yer alır», — deyə Teymur Musayev qeyd edib.

Səhiyyə naziri endourologiyanın diaqnostika və müalicə baxımından üstünlüklərindən, Azərbaycanda bu sahənin inkişafından danışıb, konqresin işinə uğurlar arzulayıb.

Sonra **Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli** Urologiya kafedrasının fəaliyyətini və elmə verdiyi töhfələri vurğulayıb.

Tədbirdə çıxış edən **akademik Südeyif İmamverdiyev** ATU-nun Urologiya kafedrasının 50 illik tarixinə nəzər salaraq, kafedranın keçdiyi inkişaf yolundan və bu sahədə yetişən tanınmış mütəxəssislərdən bəhs edib.

**Azərbaycan Endouroloji Cəmiyyətinin sədri, professor Rauf Nağıyev** çıxış edərək ölkəmizdə endourologiyanın inkişafı və cəmiyyətin bu sahəyə verdiyi töhfələrdən ətraflı söz açıb.

Tədbirdə dünyanın nüfuzlu urologiya mütəxəssisləri, o cümlədən professor Ateş Kadıoğlu (Türkiyə), professor Tomas Knoll (Almaniya), professor Bhaskar Somani (Böyük Britaniya), professor Athanasios Papatsoris (Yunanıstan) və digər tanınmış alimlər müasir endourologiyanın aktual məsələləri ilə bağlı məruzələr təqdim ediblər.

Konqres çərçivəsində urologiya sahəsində ən son elmi yeniliklər müzakirə olunub, təcrübə mübadiləsi aparılıb və multidisiplinar əməkdaşlıq imkanları dəyərləndirilib.

# Səhiyyə Nazirliyi və Dövlət Gömrük Komitəsi arıqlama çayları ilə bağlı əhaliyə müraciət edib

**Səhiyyə Nazirliyi və Dövlət Gömrük Komitəsi elektron ticarət yolu ilə ölkəyə gətirilən «arıqlama çayı və qəhvələri» ilə bağlı əhaliyə birgə müraciət ünvanlayıb. Nazirliyin mətbuat xidmətinin yayımladığı müraciətdə deyilir ki, son dövrlər elektron ticarət yolu ilə kütləvi formada «arıqlama çayı və qəhvələri» adı altında müxtəlif markalı qəhvə və çayların Azərbaycan Respublikasına gətirilməsi artmaqdadır: «Həmin mallarla əlaqədar gömrük orqanlarında aparılan araşdırmalar nəticəsində qeyd olunan qəhvə və çayların tərkibində güclü təsirə malik maddə hesab edilən sibutramin maddəsinin olduğu aşkar edilib.**

Sibutramin maddəsi 18 mart 2016-cı il tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş «Güclü təsir edən maddələrin və onların külli miqdarının siyahısı»na daxildir və bu tərkibdə malların Azərbaycan Respublikasının gömrük sərhədindən gömrük nəzarətindən kənar və ya ondan gizli, sənədlərdən və ya gömrük eyniləşdirilməsi vasitələrindən aldatma yolu ilə istifadə, yaxud bəyan və ya düzgün bəyan etməməklə keçirilməsi Cinayət Məcəlləsinin 206-cı maddəsi, buna əsaslar olduqda həmin Məcəllənin 240-cı maddəsi ilə cinayət məsuliyyətinə səbəb olur.

Ölkə ərazisinə qadağan edilən bu kimi maddələrin gətirilməsinin qarşısının alınması üçün sifariş edilməsinə və daşınmasına yol verilməməsinin vacibliyi diqqətə çatdırılır.

Güclü təsir edən maddələrin ölkəyə qanunsuz yollarla gətirilməsində sifariş verən şəxslərlə bərabər, daşıyıcı şirkətlər və digər şəxslər də qanunla müəyyən edilən qaydada məsuliyyət daşıyırlar.

Eyni zamanda, Səhiyyə Nazirliyi Farmakoloji və Farmakopeya Ekspert Şurasının Protokoluna əsasən, piylənmə əleyhinə vasitə kimi istifadə olunan sibutramin tərkibli məhsulların insan orqanizmi üçün təhlükəli olduğu və sağlamlığa göstərdiyi ciddi təsirləri nəzərə alınaraq, dövlət qeydiyyatından çıxarılması barədə qərar qəbul olunub və tərkibində sibutramin olan məhsulların dövlət qeydiyyatına alınması qadağan edilib. Sözügedən qərarlarda haqqında danışılan maddənin Avropa Səhiyyə Təşkilatı tərəfindən qeydiyyatdan çıxarılması və beynəlxalq səviyyədə onların istifadəsinin qadağan olunması təsbit olunub. Ona görə də, vətəndaşlara onlayn sifariş zamanı diqqətli olmaq tövsiyə edilir.

Sibutramin təsiredici maddəsinin, ümumilikdə 10 092 əlavə təsiri haqqında məlumatlar mövcuddur. Adıçəkilən maddənin əlavə təsirləri kimi baş ağrısı, yuxusuzluq, ağızda quruluq, başgicəllənmə, qəbizlik, qan təzyiqinin yüksəlməsi, depressiya, narahatlıq, yorğunluq, qusma, ishal, boğazda quruluq, miqren, miokard infarktı, hallüsinasiyalar, ürək-damar xəstəliklərinin kəskin ağırlaşması və ciddi risklərinin meydana gəlməsi, astma, koma, nitq qabiliyyətinin itməsi, qəfil ölüm və s. göstərmək olar. Bu səbəblərdən sibutraminin istifadəsi bir çox ölkələrdə dayandırılıb. Belə ki, Azərbaycandan başqa, sibutramin tərkibli məhsulların dövlət qeydiyyatına alınması Avropa İttifaqı ölkələrində, həmçinin ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya, Sinqapur, Misir və digər dövlətlərdə qadağan olunub».

Müraciətin sonunda əhaliyə piylənməyə qarşı mübarizədə sağlam həyat tərzi, düzgün qidalanma, fiziki aktivlik kimi elmi cəhətdən təsdiq olunan üsullara üstünlük vermələri və sağlamlığa ziyan gətirən belə məhsulların istifadəsindən uzaq durmaları tövsiyə olunur.

# Səhiyyə Nazirliyi dövlət tibb müəssisələrinə işə qəbul prosesini rəqəmsallaşdırıb

**Səhiyyə Nazirliyi səhiyyə sistemində müasir dövrün tələbi və innovativ düşüncə məhsulu olan Rəqəmsal Səhiyyə ekosisteminin tətbiqi ilə bağlı tədbirləri davam etdirir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə təsdiq edilmiş «Dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinə tibb işçilərinin işə qəbulu Qaydası»nın icrasını təmin etmək məqsədilə Səhiyyə Nazirliyinin «Vahid Səhiyyə İnformasiya Sistemi»nin (VSİS) «İşə qəbul» altsistemi hazırlanaraq istifadəyə verilib.**



Bu barədə nazirliyin Mətbuat xidmətinin məlumatında deyilir ki, dövlət tibb müəssisələrinə işə qəbul prosesinin rəqəmsallaşdırılmasında məqsəd şəffaflıq və aşkarlığın təmin olunması, habelə namizədlərə öz sənədlərini elektron qaydada, vaxt itkisi olmadan, operativ təqdim etmək imkanının yaradılmasıdır.

Tibb işçiləri Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisələrində öz ixtisaslarına uyğun mövcud vakansiyalar barədə məlumatı Səhiyyə Nazirliyinin rəsmi internet resurslarında (https:sehiyye.gov.aztibb-iscileriinsan-resurslari və ya https:kabinet-.e-health.gov.azmodulmiqvacancies) verilən elanlar vasitəsilə əldə edə bilərlər.

Qeyd edək ki, tibb işçilərinin işə qəbulu vakant vəzifənin olduğu tibb müəssisəsi tərəfindən müsahibə əsasında aparılır. Müsahibənin iki forması mövcuddur: daxili və ümumi müsahibə. Tibb müəssisəsinin rəhbəri vəzifədə yüksəliş yolu ilə vakant vəzifənin tutulması məqsədilə daxili müsahibənin keçirilməsi üçün vakansiya yarandığı gündən 3 (üç) iş günü müddətində qərar qəbul edir. Daxili müsahibə nəticəsində vakant vəzifə tutulmadıqda tibb müəssisəsinin rəhbərinin qərarı ilə həmin vəzifə ümumi müsahibəyə çıxarılır.

Həm daxili, həm ümumi müsahibədə iştirak etmək üçün namizəd https:sehiyye.-gov.az saytında vakansiya elan edilən gündən etibarən 15 (on beş) iş günü müddətində VSİS-nin müvafiq altsistemində şəxsi kabinet yaradaraq qeydiyyatdan keçir və uyğun vakansiyaları seçərək, öz ərizəsini təsdiq edir.

Nazirlik tərəfindən VSİS-nin müvafiq altsistemi vasitəsilə namizədin təqdim etdiyi sənədlərin düzgünlüyü qeydiyyat üçün nəzərdə tutulan müddətin bitdiyi tarixdən 5 (beş) iş günü müddətində avtomatlaşdırılmış qaydada yoxlanılır. Bu yoxlanma müsbət nəticələndikdə elektron poçt və (və ya) şəxsi kabineti vasitəsilə müsahibəyə buraxılması barədə namizədə, vakansiyanın aid olduğu tibb müəssisəsinə və tibb müəssisəsinin tabe olduğu quruma məlumat verilir. Təqdim edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, bu barədə ərizəçi 1 (bir) iş günündən gec olmayaraq məlumatlandırılır.

VSİS vasitəsilə əldə edilməsi mümkün olan sənədlər istisna olmaqla, işə qəbul edilmək üçün tələb olunan sənədlər aşağıdakılardır:

- xarici ölkələrdə təhsil alan namizədlərə münasibətdə onların xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasına dair sənədinin surəti;
- elmi dərəcəsinin olduğunu təsdiq edən sənədin (olduğu halda) surəti;
- əmək kitabçasının notariat qaydasında və ya işəgötürən tərəfindən təsdiq edilmiş surəti (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla);
- ixtisas dərəcəsinin verilməsi barədə sənədin surəti;
- ixtisası və əmək funksiyası ilə bağlı əlavə təhsili barədə müvafiq sertifikatlar (şəhadətnamələr).

Tibb müəssisəsi tərəfindən yaradılmış müvafiq komissiya tərəfindən namizədin potensial imkanları və vəzifəyə uyğunluğu qiymətləndirilir. Bu qiymətləndirmənin qaydaları və qəbul edilən keçid balları barədə məlumatla müvafiq qərarın yayımlandığı https:e-qanun.azframework57500 saytında tanış olmaq mümkündür. Namizədlərin fərdi qaydada qiymətləndirilməsinin balları barədə məlumat onların şəxsi kabinetində (https:kabinet.e-health.gov.az) əlçatan olur.

Tibb işçiləri sistemin istifadə qaydaları haqqında əlavə məlumat almaq üçün Rəqəmsal Səhiyyə Mərkəzinə məxsus 0555313828 nömrəyə vatsap üzərindən yaza və ya office-@e-health.gov.az email ünvanına müraciət edə bilərlər.

Səhiyyə Nazirliyinin Rəqəmsal Səhiyyə Mərkəzinin Treninq və Monitorinq Bölməsinin mütəxəssisi Aqşin Səmədov mövzu ilə bağlı AZƏRTAC-a açıqlamasında deyib ki, «İşə Qəbul» alt sistemi səhiyyə müəssisələrində kadr seçimi prosesini daha şəffaf, səmərəli və obyektiv həyata keçirmək məqsədilə tətbiq olunub. Sistem vasitəsilə tibb müəssisələrinin vakant yerləri elan edilir və namizədlər uyğun olduqları vəzifələrə müraciət edə bilirlər. O bildirib ki, işə qəbul prosesinin əsas mərhələlərindən biri müsahibədir: «Müsahibə səhiyyə müəssisəsində komissiya üzvləri tərəfindən keçirilir və namizədlərin bilik və bacarıqları müəyyən edilmiş meyarlar üzrə qiymətləndirilir. Bu zaman hər bir namizədə eyni vakansiya üzrə eyni suallar verilir. Namizədin cavabları hər bir meyar üzrə 2 (qeyri-kafi), 3 (kafi), 4 (yaxşı) və ya 5 (əla) balla qiymətləndirilir. Əgər namizəd hər hansı meyar üzrə 2 bal alarsa, müsahibədən uğursuz keçmiş hesab edilir. Bütün meyarlar üzrə topladığı ballar yekun qiymətləndirməyə daxil edilir və nəticə sistemə ötürülür. Müsahibə başa çatdıqdan sonra sistem bütün namizədlərin yekun ballarını avtomatik müqayisə edir və ən yüksək bal toplayan namizədi seçir. Seçim nəticələri namizədlərə sistem üzərindən fərdi qaydada bildirilir».

A.Səmədovun sözlərinə görə, namizədlər öz təhsil, bilik və bacarıqlarına uyğun olan bir neçə vakant vəzifəyə eyni anda müraciət edə bilərlər: «Bu, səhiyyə sahəsində işləyən kadrlar üçün daha geniş iş imkanları yaradır və müəssisələrə daha çox namizəd arasından seçim etməyə şərait yaradır. Sistem müsahibə vaxtlarının üst-üstə düşməsinin qarşısını alır. Bir namizəd üçün artıq bir tibb müəssisəsində müsahibə vaxtı təyin edildikdə, digər tibb müəssisələri həmin tarixdə eyni namizədi müsahibəyə dəvət edə bilmir. Bu mexanizm həm namizədlər, həm də səhiyyə müəssisələri üçün işə qəbul prosesini daha səmərəli və nizamlı edir».

«Səhiyyə Nazirliyinin VSİS sistemi çərçivəsində fəaliyyət göstərən «İşə Qəbul» alt sistemi işə qəbul prosesinin tam elektronlaşdırılmasını təmin edərək bir sıra üstünlüklər yaradır. Belə ki, mərkəzləşdirilmiş sistem sayəsində bütün səhiyyə müəssisələrinin vakansiyaları vahid platformada toplanır və namizədlər üçün əlçatan olur. Seçim şəffaf və obyektiv qiymətləndirmə əsasında edilir, müsahibə nəticələri sistemdə qeyd olunur və seçim reytinq əsasında aparılır. Uyğunluğun yoxlaması avtomatlaşdırılmış aparılır, yəni namizədlərin təhsili, iş təcrübəsi və ixtisas göstəriciləri sistem tərəfindən avtomatik filtrasiya edilir. Namizədlərin diplom, sertifikat və digər sənədləri avtomatik yoxlanılır, bu da saxta sənəd təqdim edilməsinin qarşısını alır. Sistem həmçinin effektiv idarəetmə modelidir, belə ki, müəssisələr real vaxt rejimində vakansiyalar və müraciət edən namizədlər haqqında məlumat əldə edə bilir. Sistemin interfeysi istifadəçi üçün rahatdır, o həm işəgötürənlər, həm də namizədlər üçün müraciətlərin statusunu izləmək və bildirişlər almaq imkanı yaradır. Sistem insan faktorunu minimuma endirərək səhiyyə müəssisələrinin ən uyğun kadrları daha sürətli və səmərəli şəkildə seçməsinə imkan yaradır. Elektronlaşdırılmış işə qəbul mexanizmi səhiyyə sahəsində insan resurslarının idarə edilməsini müasir tələblərə uyğunlaşdıraraq optimallaşdırır», - deyə Aqşin Səmədov əlavə edib.

## Səhiyyə Nazirliyi və Baş Prokurorluq: Xüsusi Təftiş Komissiyası hələ işini bitirməyib




**Səhiyyə Nazirliyi və Baş Prokurorluq plastik cərrahların fəaliyyəti ilə bağlı əhaliyə birgə müraciət ünvanlayıb.**

Müraciətdə deyilir: «Son günlər müxtəlif media vasitələrində ölkədə ayrı-ayrı plastik cərrahların praktik tibb fəaliyyəti ilə məşğul olmasına icazə verən sertifikasiya şəhadətnamələrinin ləğv olunması ilə bağlı məlumatlar yayılır.

Xəbər verdiyimiz kimi, vətəndaşlardan daxil olan çoxsaylı şikayətləri nəzərə alaraq, ölkə ərazisində praktik tibb fəaliyyəti ilə məşğul olan plastik cərrahların peşə fəaliyyətinin qanuni əsaslarının yoxlanılmasına başlanılıb. Bu məqsədlə Səhiyyə Nazirliyində Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin, Elm və Təhsil Nazirliyinin səlahiyyətli nümayəndələrindən ibarət Xüsusi Təftiş Komissiyası yaradılıb.

Hazırda Xüsusi Təftiş Komissiyası təqdim olunan sənədlərin fərdi qaydada yoxlanılmasını aparır. Komissiya işini yekunlaşdırdıqdan sonra qəbul edilən qərar barədə ətraflı məlumat veriləcək».

Səhiyyə Nazirliyi və Baş Prokurorluq ictimaiyyət üçün həssas olan məsələyə diqqətlə və məsuliyyətlə yanaşmağa çağırır, Komissiyanın işinin nəticələrini gözləməyi tövsiyə edir.

# Elektron siqaretlər: Duman arxasında sizi gözləyən təhlükə!

### *Səhiyyə Nazirliyi və AQTA elektron siqaretlərlə bağlı vətəndaşlara müraciət edib*

**Son illərdə elektron siqaretlər (veyplər) dünya miqyasında milyonlarla insanın gündəlik həyatının ayrılmaz hissəsinə çevrilib. Tərkibində tütün olmadığı üçün daha az zərərli kimi təqdim edilən elektron siqaretlər əslində sağlamlıq üçün təhlükədir.**




Bu barədə Səhiyyə Nazirliyi ilə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) birgə müraciətində məlumat verilir.

Müraciətdə bildirilir ki, ənənəvi siqaretlərə alternativ olaraq təqdim edilən elektron siqaretlər xüsusilə gənclər və qadınlar arasında geniş yayılıb. Rəngarəng dizaynlar, müxtəlif meyvə və şirniyyat dadı effekti, marketinq strategiyaları və sosial mediada geniş reklam olunması bu cihazları gənclər üçün cazibədar hala gətirir. İlkin mərhələdə bu məhsulların əsas hədəf auditoriyası siqareti tərgitmək istəyən insanlar olsa da, son illərin statistikası göstərir ki, veypdən istifadə daha çox əvvəllər siqaret çəkməyən şəxslər, xüsusən yeniyetmələr və gənclər arasında sürətlə yayılmağa başlayıb.

Veyplərin sağlamlıq üçün riskləri barədə araşdırmalar artdıqca, onların heç də zərərsiz olmadığı, əksinə, müəyyən hallarda ənənəvi tütün məhsulları qədər, hətta daha təhlükəli ola biləcəyi ortaya çıxıb. Veyp mayelərinin tərkibində müxtəlif kimyəvi maddələr, o cümlədən nikotin, ağır metallar və insan orqanizminə təsir edən bir çox zərərli komponentlər mövcuddur. Elektron siqaretlərin tərkibində tütün olmadığı üçün onların daha az zərərli olduğu düşünülür, lakin bu, yanıldıcı təsəvvürdür. Nikotinin yüksək dərəcədə asılılıq yaratması ilə yanaşı, ürək-damar, tənəffüs və sinir sisteminə mənfi təsirləri elmi araşdırmalar tərəfindən təsdiqlənib.

Elektron siqaretlərin istifadəsi zamanı havaya buraxılan buxar yalnız istifadəçi üçün deyil, ətrafdakı insanlar üçün də təhlükə yaradır. Passiv veyp istifadəsi nəticəsində ətrafda olan şəxslər də nikotin və digər kimyəvi maddələri inhalyasiya edirlər. Bu isə xüsusilə uşaqlar, hamilə qadınlar və tənəffüs xəstəlikləri olan şəxslər üçün ciddi təhlükə yaradır.

Bundan əlavə, elektron siqaretlərin tüstüsünün olmaması və dumanının xoş qoxuya malik olması onların qapalı məkanlarda istifadəsini daha da artırır. Əgər siqaretin tüstüsü və qoxusu qadağan olunmuş məkanlarda dərhal hiss edilirsə, veyp aerozolları daha az nəzərə çarpır. Bu səbəbdən bəzi istifadəçilər veypləri nəqliyyatda, restoranlarda və digər ictimai yerlərdə rahatlıqla istifadə edirlər. Bu isə cəmiyyət üçün daha geniş sağlamlıq problemi yaradır və bu cihazların diqqətdə saxlanılmasının vacibliyini ön plana çıxarır.

# Səhiyyə Nazirliyi Cəbrayılda tibbi müayinələr təşkil edib



**«Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində Səhiyyə Nazirliyi işğaldan azad olunmuş ərazilərə köçürülən vətəndaşlar arasında müxtəlif xəstəliklərin aşkarlanması ilə bağlı əhalinin kompleks müayinələrin aparılması, tibbi konsultasiyaların verilməsi və sağlamlıq məmnunluğunun təmin edilməsi məqsədilə silsilə tədbirləri davam etdirir.**




Nazirliyin təşkilatçılığı ilə keçirilən növbəti belə aksiya zamanı Səhiyyə Nazirliyi Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun tibb heyəti tərəfindən ilk dəfə olaraq Cəbrayıl şəhərində sakinlər üçün tibbi xidmətlər göstərilib.

Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilib ki, müayinələr institutun tibbi avadanlıqların tam dəsti ilə xüsusi təchiz olunan səyyar klinikasında aparılıb. Müxtəlif diaqnostik prosedurlardan başlayaraq ilkin tibbi yardım göstərməyə qədər istifadə edilən mobil klinikalar modul avadanlıq konsepsiyası sayəsində ucqar ərazilərdə yaşayan əhaliyə tibbi xidmətlərin keyfiyyətini və əlçatanlığını təmin etmək məqsədilə yaradılıb.

Aksiya zamanı institutun pulmonoloq, ftiziatr, allerqoloq, kardioloq, radioloq, rentgenoloq və laboratoriya həkimi tərəfindən müxtəlif instrumental-diaqnostik üsullardan istifadə edilməklə döş qəfəsi orqanlarının flüoroqrafiyası, elektrokardioqrafiya, exokardioqrafiya, spirometriya, USM müayinəsi və qan analizlərinin tədqiqi həyata keçirilib.

Müayinələr nəticəsində səhhətində problem aşkarlanan şəxslərə tibbi məsləhətlər verilib və müvafiq müalicə təyin olunub.

Aksiya zamanı 300-ə yaxın Cəbrayıl sakini müayinələrdən keçib.

Tədbirdən sonra maarifləndirici aksiya təşkil olunub. Təqdimatlarla çıxış edən institutun əməkdaşları qeyd ediblər ki, aksiyanın məqsədi işğaldan azad edilən ərazilərdə məskunlaşan əhali üçün mütəmadi qaydada səyyar tibbi müayinələrin keçirilməsi yolu ilə əhalinin sağlamlığını yaxşılaşdırmaqdır. Eyni zamanda, tədbir Cəbrayıl sakinlərinin sağlamlığının qorunmasında dəstək və yardım göstərilməsi, habelə ağciyər sağlamlığının əsas aspektləri və profilaktik tədbirlər haqqında maarifləndirmə məqsədini daşıyır.

Tədbirdə yerli əhaliyə ağciyər xəstəlikləri və onların profilaktikası haqqında faydalı məlumatlar verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Cəbrayılda və Zəngilanda kardioloji müayinələr keçirilib



**Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə nazirliyin Akademik C.Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) həkim briqadası tərəfindən Cəbrayıl rayonunda və Zəngilan rayonunun Ağalı kəndində əhali üçün kardioloji müayinələr keçirilib. Tədbirin ilk günündə Zəngilan rayonunun Ağalı kəndində tibbi müayinələr təşkil olunub. Növbəti gün tibbi aksiya Cəbrayıl şəhərində davam edib.**



«Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində baş tutan ikigünlük aksiyanın əsas məqsədi vətəndaşların ürək-damar sistemi xəstəliklərinin qarşısının alınması, miokard infarktı riskinin erkən aşkarlanması və müalicələrin təyin edilməsidir.

ETKİ-dən verilən məlumata görə, aksiya çərçivəsində institutun kardioloq, endokrinoloq və tibb bacısından ibarət briqadası tərəfindən əhaliyə tibbi baxış keçirilib, ExoKQ, EKQ müayinələri aparılıb. Eyni zamanda, qanda şəkərin, ekspres üsul ilə xolesterinin səviyyəsi müəyyən edilib. Müayinələr zamanı səhhətində problem aşkarlanan sakinlərə peşəkar tibbi məsləhətlər verilib və müvafiq müalicələr təyin olunub.

Ümumiyyətlə, aksiya zamanı 250-dən artıq vətəndaş müayinələrdən keçirilib.

Müayinələrdən sonra sağlam həyat tərzinin təşviqi ilə bağlı, eyni zamanda, yüksək təzyiq və ürəktutma zamanı ilk tibbi yardımın göstərilməsinə dair Cəbrayıl və Zəngilan rayonlarının ictimaiyyəti üçün maarifləndirici tədbir təşkil olunub.

Kardiologiya İnstitutunun direktoru Gülnaz Dadaşova ürək-damar xəstəliklərinin müasir tibbin ən aktual məsələlərindən biri olduğunu diqqətə çatdırıb. Direktorun sözlərinə görə, ürək xəstəliyi və insult üçün ən əhəmiyyətli davranış risk faktorlarına qeyri-sağlam qidalanma, fiziki aktivlik səviyyəsinin aşağı olması, siqaret və alkoqol kimi zərərli vərdişlər aiddir.

Eyni zamanda, tədbirdə yerli əhaliyə ürək-damar xəstəlikləri və onların profilaktikası haqqında faydalı məlumatlar verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Ehtiyacı olan vətəndaşlara isə paytaxta invaziv müayinə üçün göndərişlər verilib.

# Müasir Azərbaycan səhiyyəsi tarixində yeni mərhələ:

## Meyit donorun orqanları transplantasiya edildi

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ölkə səhiyyəsində baş vermiş bir ilk haqqında məlumat yayıb.**



Bildirilir ki, nazirliyin tabeliyindəki Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinə Kliniki Tibbi Mərkəzdə müalicə alan pasiyentə beyin ölümü diaqnozunun qoyulmasına dair məlumat daxil olub. Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi tərəfindən orqan donorluğu və transplantasiyası prosesinin təşkili və əlaqələndirilməsi üzrə aidiyyəti tədbirlər həyata keçirilib: «Beyin ölümü diaqnozu qoyulmuş vətəndaşın orqanlarının transplantasiyasına ailəsi razılıq verib. Bununla da orqan donorluğu və transplantasiyası sahəsində müasir Azərbaycan səhiyyə tarixində ilkə imza atılıb.

Meyit donordan götürülmüş qaraciyər Mərkəzi Gömrük Hospitalında tibb üzrə fəlsəfə doktoru Mircəlal Kazıminin rəhbərlik etdiyi peşəkar tibbi heyət tərəfindən hepatit B və hepatit D-yə görə qaraciyər sirrozundan əziyyət çəkən, canlı donoru olmayan 12.10.2002-ci il təvəllüdlü pasiyentə köçürülüb.

Gözün buynuz qişası Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində ixtisaslaşmış cərrah-oftalmoloq, tibb üzrə fəlsəfə doktoru Cəmil Həsənov və peşəkar komanda tərəfindən iki resipiyentə köçürülüb. Onlardan biri Zaqatala, digəri isə Füzuli rayon sakinidir.

Bildiririk ki, bu əməliyyatlar yalnız ölkəmizdə deyil, həmçinin Qafqaz regionunda ilk dəfə meyit donordan alınan orqan transplantasiyası əməliyyatlarıdır».

Səhiyyə Nazirliyi donorun yaxınlarına nəcib davranışlarına görə minnətdarlığını bildirib, peşə vəzifələrini yüksək səviyyədə icra etmiş tibb mütəxəssislərinə təşəkkür edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Ölkəmizdə meyit donordan ilk orqan transplantasiyası əməliyyatları ilə bağlı olaraq Səhiyyə Nazirliyində brifinq keçirilib.

Tədbirdə Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədri Yeganə Abbasova deyib ki, 2024-cü ildə reanimasiya şöbələrində süni tənəffüs aparatı olan bütün xəstəxanalara məktub ünvanlanıb. Həmin məktubda daxil olan ağır xəstələr haqqında Koordinasiya Mərkəzinə məlumat verilməsi zərurəti əks olunub. O bildirib ki, ötən ildən Bakıda süni tənəffüs aparatı ilə təchiz olunan reanimasiya şöbələrində beyin ölümü diaqnostikası ilə bağlı təlimlər keçirilməyə başlanılıb: «2025-ci ildə hədəflərimiz regionlarda süni tənəffüs aparatı ilə təchiz edilmiş reanimasiya şöbəsi olan xəstəxanalarda da beyin ölümü diaqnostikasının təlimlərinin keçirilməsidir. Eyni zamanda, təhsil ocaqlarında ölümündən sonra donor olmağı təşviq və təbliğ etmək istiqamətində seminarların aparılması nəzərdə tutulub», - deyə Y.Abbasova qeyd edib.

O əlavə edib ki, Azərbaycanda indiyədək 1000-dən çox böyrək transplantasiyası əməliyyatı, 500-dən çox qaraciyər, 300-dən çox buynuz qişa, 200-dən çox sümük iliyi transplantasiyası əməliyyatı icra olunub.

Yeganə Abbasova brifinqdə deyib ki, iki il ərzində 100 nəfərə qədər insan ölümündən sonra könüllü donor olmaq istəyini bildirib: «Bizim mərkəzin rəsmi saytına - odtkm.gov.az saytına daxil olaraq ölümümüzdən sonra donor ola bilərik. Eyni zamanda, «ASAN İmza» ilə donor olmaq mümkün olacaq. Bu yaxınlarda bu da həyata keçəcək. Həmçinin, mərkəzə gələrək Nazirlər Kabinetinin imzaladığı formanı təsdiq edərək donor olmağı bəyan etmək mümkündür», - deyə Y.Abbasova qeyd edib.

Mərkəzin İdarə Heyətinin sədri donorun yaşının və cinsinin gizli saxlanıldığını bildirib. Məlumat verib ki, beyin ölümü diaqnozu qoyulandan sonra təkrar testlər aparılır. Əgər beyin ölümü təsdiqlənərsə, o zaman Nazirlər Kabinetinin təsdiq etdiyi formaya əsasən mərhumun həyati fəaliyyətinin saxlanılması tədbirləri görülür: «Çalışırıq ki, ən azından ürəyin sinir sisteminin hesabına həmin mərhumun ürəyi 2-3 sutka döyünə bilsin. Orqanlar sağlamdırsa, bir donordan 10-11 nəfərə orqan köçürülə bilər».

Brifinqdə cərrah-transplantoloq, tibb üzrə fəlsəfə doktoru Mircəlal Kazımi və cərrah-oftalmoloq, tibb üzrə fəlsəfə doktoru Cəmil Həsənov həyata keçirdikləri əməliyyatlar haqqında məlumat veriblər.

# Səhiyyə Nazirliyi «Lazer Beauty Klinikası»nın lisenziyasının dayandırılması üçün müraciət etdi



**Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi tərəfindən «Lazer Beauty Klinikası»nda yoxlama aparılıb.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, yoxlama zamanı aşkar edilən nöqsanlarla bağlı İnzibati Xətalar Məcəlləsinin müvafiq bəndlərinə əsasən cərimələrin tətbiq edilməsi ilə əlaqədar məhkəməyə müraciət olunub.

Klinikanın lisenziyasının dayandırılması və ya ləğv edilməsi ilə bağlı Səhiyyə Nazirliyi tərəfindən İqtisadiyyat Nazirliyinə məktub göndərilib.

# Səhiyyə Nazirliyi rəsmisi Tokioda səhiyyənin idarə edilməsi üzrə təlimlərə qatılıb

**Tokio şəhərində Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (JICA) və Yaponiya Milli İctimai Səhiyyə İnstitutunun birgə təşkilatçılığı ilə «Səhiyyə sisteminin idarəedilməsi (Liderlik və İdarəçilik)» adlı Biliklərin Birgə Yaradılması təlim proqramı keçirilib. Təlimin əsas məqsədi səhiyyə sahəsində olan çağırışlara idarəçilik perspektivindən baxış və sistematik qiymətləndirmə bacarıqlarının formalaşdırılması olub.**







Səhiyyə Nazirliyi mətbuat xidmətinin məlumatına görə, 12 iştirakçı ölkədən səhiyyə sahəsində tənzimləyici qurumlarda çalışan, idarəçiliyin təşkili və siyasətin formalaşmasına cavabdeh olan əməkdaşların iştirak etdiyi təlim proqramında Azərbaycanı nazirliyin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev təmsil edib.

Proqram çərçivəsində səhiyyə sisteminin gücləndirilməsinə yönələn və müxtəlif aspektləri əhatə edən (universal səhiyyə əhatəsi, innovativ səhiyyə strategiyaları, tibb xidmətlərinin keyfiyyəti və maliyyələşdirilməsi, tibbi-sosial məsələlər, liderlik bacarıqları) mühazirələr dinlənilib, təlimlər təşkil olunub, habelə Yaponiya və iştirakçı ölkələrin təcrübəsi ilə tanış olmaq məqsədilə təcrübə mübadiləsi aparılıb.

Təlimin gedişatında iştirakçılar Yaponiyanın müxtəlif şəhərlərində fəaliyyət göstərən inzibati, tibbi və sosial müəssisələrin işi ilə yaxından tanış olublar.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim edilib.

# «Bullyoz epidermolizin mozaikası»

## *Bakıda bu mövzuda beynəlxalq elmi dəyirmi masa keçirilib*

**Azərbaycan Tibb Universitetinin (ATU) Dermatovenerologiya kafedrası və Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) birgə əməkdaşlığı ilə 28 Fevral - Beynəlxalq Nadir Rast Gələnən Xəstəliklər Gününə həsr olunan «Bullyoz epidermolizin mozaikası» adlı dəyirmi masa keçirilib.**





Beynəlxalq elmi tədbir nadir xəstəliklər barədə maarifləndirmənin artırılması, erkən diaqnostika və müalicə imkanlarının yaxşılaşdırılması üçün mütəxəssislər, aidiyyəti dövlət və qeyri-dövlət qurumları arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə təşkil olunub.

Tədbirdə Səhiyyə Nazirliyinin dermatovenerologiya üzrə mütəxəssis eksperti, ATU-nun Dermatovenerologiya kafedrasının müdiri professor Fərid Mahmudov giriş sözü ilə çıxış edib. O, tədbirin əhəmiyyətini vurğulayıb və bildirib ki, anadangəlmə bullyoz epidermoliz və ixtioz xəstəlikləri ilə bağlı aparılan fikir mübadiləsi ölkəmizdə mövcud vəziyyətin təhlili və əsas problemlərin müəyyənləşdirilməsi, diaqnostika, müalicə və dəstək mexanizmlərinin təkmilləşdirilməsi üçün təkliflərin hazırlanmasına öz töhfəsini verəcək.

Rusiya Federasiyası Moskva vilayətinin Səhiyyə Nazirliyinin nadir xəstəliklər üzrə baş mütəxəssisi, tibb elmləri namizədi Yuliya Kotalevskaya, Özbəkistan Respublikası Səhiyyə Nazirliyinin Dermatovenerologiya və Kosmetologiya üzrə Elmi-Təcrübi Mərkəz inin aparıcı elmi işçisi, tibb elmləri doktoru, professor Akram Rahmatov və həmin mərkəzin Genetik Dermatozlar bölməsinin rəhbəri Mədəmin Xaldarbekov, Global Rare Diseases Eurasia şirkətinin tibb meneceri, farmakologiya üzrə fəlsəfə doktoru Pavel Fedosov sessiyalarda geniş təqdimatlarla çıxış ediblər.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Qadın, ana, uşaq və yeniyetmələrin müdafiəsi sektorunun müdiri Aynurə Zeynalovanın, İSİM-in direktoru Qəhrəman Haqverdiyevin, beynəlxalq və yerli ekspertlərin iştirak etdiyi dəyirmi masada bulyoz epidermoliz xəstəliyinin diaqnostikası, müalicəsi və reabilitasiyası üzrə aktual məsələlər ətrafında geniş fikir mübadiləsi və müzakirələr aparılıb.

# «Talassemiyasız həyat naminə 20 il: Nadir xəstəliklər» mövzusunda konfrans keçirilib





**Bakıda «Talassemiyasız həyat naminə 20 il: Nadir xəstəliklər» mövzusunda tədbir baş tutub.**

AZƏRTAC xəbər verir ki, səhiyyə sahəsinin aparıcı mütəxəssislərinin, dövlət rəsmilərinin, beynəlxalq səhiyyə təşkilatlarının nümayəndələrinin, ekspertlərin və digər şəxslərin iştirak etdiyi konfransın əsas məqsədi talassemiya və başqa nadir xəstəliklərin diaqnostikası, müalicəsi və profilaktikası sahəsində əldə olunan nailiyyətləri müzakirə etmək, həmçinin perspektivləri müəyyənləşdirməkdir.

Konfransın elmi hissəsində çıxış edən professorlar Azər Kərimov və Sərdar Ceylaner, hematoloq Səhər İsmayılova son 20 ildə Heydər Əliyev Fondunun talassemiya ilə mübarizə istiqamətində həyata keçirdiyi layihələrdən bəhs ediblər. Qeyd olunub ki, 2005-ci ildə keçirilən ilk tədbirdən sonra Fondun təşəbbüsü ilə Bakıda Talassemiya Mərkəzi inşa edilib və 2009-cu il mayın 9-da istifadəyə verilib. Bu mərkəz talassemiya xəstələrinin diaqnostikası və müalicəsində mühüm rol oynayır. Bundan başqa, ölkəmizdə talassemiya və digər nadir xəstəliklərin profilaktikası və müalicəsi sahəsində dövlət siyasətinin əhəmiyyətindan danışılıb. Heydər Əliyev Fondunun bu istiqamətdə həyata keçirdiyi layihələrin ölkənin səhiyyə sisteminə verdiyi töhfələr yüksək qiymətləndirilib.

Daha sonra konfrans sessiyalarla davam etdirilib. Talassemiya və digər nadir xəstəliklərin diaqnostikası və müalicəsində müasir yanaşmalar, genetik tədqiqatların əhəmiyyəti, donor qanının toplanması və istifadəsi, həmçinin ictimai maarifləndirmə kampaniyalarının rolu ətrafında müzakirələr aparılıb. Talassemiya və nadir xəstəliklərin qlobal miqyasda mövcud vəziyyətindən, yeni müalicə metodlarından və beynəlxalq əməkdaşlığın əhəmiyyətindən danışılıb, Azərbaycanın bu sahədə əldə etdiyi nailiyyətlər təqdir olunub.

# Analitik Ekspertiza Mərkəzi əhaliyə və apteklərə müraciət edib

**Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi (AEM) təlimatı olmadan satılan dərman vasitələrinə görə apteklərin cərimə ediləcəyi ilə bağlı mediada yayılan məlumatlarla əlaqədar əhaliyə və aptek təşkilatlarına müraciət edib.**

Bu barədə Analitik Ekspertiza Mərkəzindən bildirilib: «Azərbaycan Prezidenti İlham Əliyev İnzibati Xətalar Məcəlləsinə edilən dəyişiklikləri təsdiqləyib. Dəyişikliklərdə istifadə təlimatı olmadan satılan dərman vasitələrinə görə apteklərin cərimə ediləcəyi barədə mediada məlumat yayılıb. Əhali arasında çaşqınlıq yaranmaması üçün bildiririk ki, ölkə ərazisində dərman çatışmazlığının qarşısının alınması məqsədilə atılan ən mühüm addımlardan biri də dərman vasitələrinin qeydiyyat-ekspertiza qaydalarının sadələşdirilməsi və beynəlxalq qeydiyyatın tanınması olub. Belə ki, dərman vasitələrinin istifadə təlimatları (içlik vərəqə) hər hansı xarici dildə olarsa, qeydiyyat vəsiqə sahibi tərəfindən Azərbaycan dilində təsdiq olunmuş içlik vərəqəsi apteklərə təqdim edilməlidir. Bu tələb «Dərman vasitələri haqqında» Qanunun 11.3-cü maddəsində öz əksini tapır. Belə ki, Azərbaycan dilində olan içlik vərəqəsi dərman vasitəsini müşayiət etmədiyi təqdirdə istehlakçının tələbi əsasında aptek tərəfindən kağız formasında çap edilərək ona təqdim olunur. Həmin dərman vasitəsinin vəsiqə sahibi apteki Azərbaycan dilində olan istifadə təlimatı ilə təmin etməyə borcludur.

Qanunvericiliyin bu tələbi pozulduğu təqdirdə İnzibati Xətalar Məcəlləsinin 221.13 və 221.14-cü maddələri üzrə protokol tərtib edilərək inzibati tənbeh tədbirləri görülür. Belə ki, 221.3-cü maddəyə əsasən, Azərbaycan dilində olan istifadə təlimatı dərman vasitəsini müşayiət etmədiyi təqdirdə, həmin dərman vasitəsinin vəsiqə sahibi tərəfindən aptekin Azərbaycan dilində olan istifadə təlimatı ilə təmin edilməməsinə görə vəsiqə sahibləri - vəzifəli şəxs olduqda 1500-2000, hüquqi şəxs olduqda isə 5000-7000 manat məbləğində cərimə edilir.

Apteklər isə yalnız vəsiqə sahibləri tərəfindən Azərbaycan dilində təsdiq edilən istifadə təlimatı ilə təmin edildiyi halda, istehlakçının tələbi əsasında içlik vərəqəsinin kağız formasında çap edərək istehlakçıya təqdim etməməsinə görə 50 manat məbləğində cərimə edilir.

Əlavə olaraq qeyd etməliyik ki, Prezidentin müvafiq göstərişləri əsasında səhiyyə sahəsində aparılan dəyişikliklərdən biri də elektron resept sistemidir. Bu sistem vasitəsilə vətəndaşlar dərman vasitələrinin istifadə təlimatları ilə elektron qaydada da tanış ola bilərlər. Bunun üçün vətəndaşlar elektron resept sistemində dərmanlar bölməsinə daxil olaraq, müvafiq dərmanın istifadə təlimatını əldə edə bilərlər.

Vətəndaşlara bir daha xatırladırıq ki, özəl tibb müəssisələrində və aptek təşkilatlarında üzləşdikləri hər hansı problemlə bağlı AEM-in «bir pəncərə» sistemi, «qaynar xətt»i (012 596 05 20), aem@pharma.az elektron ünvanı və ya pharma.az saytının MÜRACİƏT bölməsi vasitəsilə bizə müraciət edə bilərlər. Bu halda araşdırılma aparılır və lazım gələrsə, plandankənar yoxlama aparılması barədə qərar qəbul edilir», - deyə müraciətdə qeyd olunub.

# Yanvar ayında 16 aptekdə yoxlama aparılıb

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi qanunvericiliyə uyğun olaraq əczaçılıq müəssisələrində yoxlamalar aparır.**

Mərkəzdən verilən məlumata görə, yanvar ayı ərzində Bakı şəhəri üzrə 1, ölkənin digər şəhər və rayonlarında isə 15 aptek olmaqla, ümumilikdə 16 aptekdə yoxlama aparılıb.

Aparılan yoxlamalar nəticəsində 9 aptekdə nöqsanlar aşkarlanıb və İnzibati Xətalar Məcəlləsinin 452.1 və 452.3 maddələri üzrə protokollar tərtib edilib.

# Tibbi tullantıların idarə olunması sahəsində məlumatlılıq artırılır



**Ölkə ərazisində tibbi tullantıların idarə olunması sahəsində məlumatlılığın artırılması məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yerli qurumları tərəfindən mütəmadi olaraq maarifləndirici tədbirlər həyata keçirilir. Bu sahədə növbəti görüşlər Ağdaş və Ağdam Rayon Mərkəzi xəstəxanalarında, «OKİ Hospital» tibb müəssisəsində keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, görüşlər çərçivəsində iştirakçılarla tibbi tullantıların idarə olunmasında mövcud problemlər və onların həlli yolları mövzusunda müzakirələr aparılıb, tibbi tullantıların insan sağlamlığı və ətraf mühit üçün təhlükəsiz idarə edilməsi, təhlükəlilik dərəcəsinə uyğun tullantıların zərərsizləşdirilməsi metodları barədə məlumat verilib.

**AŞAĞIDAKI TİBB MÜƏSSİSƏSİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR**

**Azərbaycan Təbabət Muzeyi**

Böyük elmi işçi - 1.0

**Ünvan: Nəcəfqulu Rəfiyev küçəsi, 18**
**Telefon: (+99412) 490-13-73**

Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan:
Həsən bəy Zərdabi küç., 96.
3-cü mərtəbə, 6-cı otaq

Tel./faks: (012) 596-06-61

E-mail:
tibbqazeti@mail.ru

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər.*
*Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*


EXPARIN
Enoxaparin Sodium Injection
TROMBOZSUZ HƏYAT
Also Available:
EXPARIN
40 mg/0.4 ml
60 mg/0.6 ml
Enoxaparin Sodium Injection BP 40 mg/0.4 ml
(Low molecular weight Heparin)
EXPARIN
VENUS


CELEMIN
Aminturşu məhlulu
5-S
NEPHRO 7%
HEPA 8%
Həyata qaytaran qüvvə
İmmuniteti yüksəldir və tez sağalmanı təmin edir
Orqanizmin energetik balansını bərpa edir
Zəngin aminturşu tərkibi sayəsində orqanizmin zülal tələbatını tam ödəyir
Otsuka


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının Respublikamızda yeganə distribütoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az